Sabahınız Xeyirli Olacaq!

AccessBank
Bank Respublika
size faydalı
DəmirBank
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
unibank
ADIF
AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI
BMZ Bundesministerium für wirtschaftliche Zusammenarbeit und Entwicklung
Finanzgruppe Sparkassenstiftung für internationale Kooperation

Beynəlxalq əmanət günü

Toplayaraq böyü!

31 oktyabr - Beynəlxalq əmanət günüdür

1924-cü ilin oktyabrında 29 ölkənin əmanət kassalarının nümayəndələri Milanda görüşüb özlərinin ilk beynəlxalq konqresini keçirdilər (ingiliscə: World Society of Savings Banks). Konqresin sonuncu günü – oktyabrın 31-də italyan professoru Ravizza təklif etmişdir ki, əmanət banklarının birinci görüşünün xatirəsinə hər ilin həmin günü “Beynəlxalq əmanət günü” kimi qeyd olunsun (ingiliscə: International Savings Day).

Əmanət etmək heç də yalnız qənaət və nədənsə imtina etmək deyil! Pulu əmanət edərkən SƏN 5 üstünlük qazanırsan!
Əmanət etmək - pul vəsaiti toplamaq deməkdir

1 Müstəqillik – pul əmanətin olsa, Sən heç vaxt kimdənsə borc pul istəməyəcəksən. Qənaət etdiyin hər bir qəpik səni daha müstəqil edir.

2 Qərar vermə imkanı – əmanət etdiyin pul sənin pulundur. Pulunun taleyinə sən özün qərar verirsən. Qənaət etdiyin hər bir qəpik səni öz qərarlarını vermək üçün daha güclü edir.

3 İnam – xoşbəxtlik pulda deyil, amma pul səni daha sərbəst edə bilər. Əmanət etdiyin pulla Sən qabaqcadan görə bilmədiyin hadisələrə daha hazırlıqlı olursan. Qənaət etdiyin hər bir qəpik sənin bu inamını daha da artırır!

4 Təhlükəsizlik – əmanət hesablarındakı pul oğurlana bilməz, odda yanmaz, suda batmaz.

5 Pul – banka əmanət etdiyin pulun üstünə faiz gəlir. Əmanət nə qədər uzun müddətli olsa, qazancın da bir o qədər artar. Əmanət etməyə nə qədər tez başlasan, pulun da sənə o qədər çox xidmət edər. “Vaxt puldur!”
Əmanətlər sənə müstəqil qərar verməyə, özünü inamlı hiss etməyə və sərbəst olmağa kömək edir.

Cavablar:

	m	ə	z	ə	n	n	ə		k	
	a				a				r	
	l				ğ				e	
	i				d				d	
	y						f	a	i	z
	y								t	
	ə	m	a	n	ə	t				
		ü								
		x		k	ö	ç	ü	r	m	ə
		b								
		i					b			d
		r		h	e	s	a	b		e
							n			p
							k			o
										z
		k	a	r	t					i
										t

Söz Axtarışı

a	m	ə	z	ə	n	n	ə	g	k	j
f	a	e	r	ü	a	ü	d	s	r	s
h	l	o	y	k	ğ	d	ı	p	e	ı
e	ı	u	o	f	d	j	a	z	d	a
y	y	r	j	z	n	p	f	a	i	z
s	y	h	j	ç	n	ı	s	u	t	q
ç	ə	m	a	n	ə	t	ı	z	u	a
ı	p	ü	l	j	n	j	u	s	q	ı
n	f	x	k	k	ö	ç	ü	r	m	ə
ı	p	b	f	s	z	s	ç	s	y	q
f	n	i	s	y	ü	s	b	j	a	d
z	ı	r	f	h	e	s	a	b	u	e
a	j	l	z	q	f	g	n	s	d	p
u	l	f	ı	l	p	f	k	a	u	o
y	u	z	s	e	j	l	s	l	f	z
l	j	k	a	r	t	s	e	f	g	i
f	y	l	f	p	e	l	n	u	i	t

Bu sözləri cədvəldə tapın:

məzənnə
bank
müxbir hesab
köçürmə
maliyyə
kredit
depozit
əmanət
faiz
nağd
kart

Sənin növbəti addımların!

A Özünü sına – mən hansı pul növünə aidəm?

Sən özünün pulla davranışın və xərcləmə vərdişlərin haqqında gör nələr öyrənəcəksən!

B Özün üçün əmanət məqsədi seç!

Mən nə əldə etmək istəyirəm? Sənin əmanət məqsədin səni həvəsləndirməli, daha uğurlu olmağına kömək etməlidir. Məsələn, məktəbdə verilən tapşırıqları yerinə yetirmək üçün kompüter lazımdırsa, bu əla hədəf ola bilər!

C Öz qənaət davranışını tənzimləmək üçün büdcə planı cədvəlindən istifadə et!

D Valideynlərinlə birgə banka get və bank işçisi ilə planların haqqında və onların sənə necə kömək edə biləcəyi barədə danış!

A Pul xərcləmə davranışın haqqında öyrən!

Sən hansı pul növünə aidsən?

	Aşağıdakı suallara cavab ver:	xallar:	cavabınız:
1	**Borc götürmək sənin üçün:**		
a	Normaldır	5	
b	Qorxuncdur	1	
c	Ciddi səbəb olarsa, normaldır	3	
2	**Ad günündə və başqa xüsusi tədbirlərdə qohumların pul hədiyyə edərkən, Sən:**		
a	Dükanlara/kafelərə gedib hamısını xərcləyirsən	5	
b	Bütün məbləği müəyyən məqsəd üçün yığıb saxlayırsan	1	
c	Bir hissəsini xərcləyib, qalanını yığıb saxlayırsan	3	
3	**Televizorda və dostlarında gördüyün əşyaların səndə də olmasını tez-tez istəyirsənmi?**		
a	Bəli, o əşyadan gərək məndə də olsun	5	
b	Xeyr, demək olar ki, heç vaxt	1	
c	Bəzən, əgər çox xoşuma gələn əşya olarsa	3	
4	**Əgər dostun səninlə dondurma və ya şirniyyat almağa getmirsə, Sən onu qonaq edirsənmi?**		
a	Bəli, həmişə	5	
b	Xeyr, demək olar ki, heç vaxt	1	
c	Əgər cib xərcliyim çoxdursa qonaq edirəm	3	
5	**Tətilə gedəndə dostların üçün hədiyyə gətirirsənmi?**		
a	Bəli, hər dəfə	5	
b	Nadir hallarda	1	
c	Əgər artıq pulum qalarsa, bəli	3	
6	**Mobil telefon üçün konturu tez-tez kreditlə götürürsənmi?**		
a	Konturum qurtaran kimi	5	
b	Demək olar ki, heç vaxt. Mənim mobil telefonumda həmişə kontur olur	1	
c	Təxminən ayda bir dəfə	3	

Üfüqi istiqamətdə

2. Rusiyanın milli valyutasının adı
4. Bankın əldə etdiyi əlavə gəlir
7. İqtisadiyyatda olan sektor
8. Gürcü milli valyutasının adı
10. Milli valyutanın qısa adı
11. Bankomatdan pulu əldə etmək üçün istifadə olunan əşya

Şaquli istiqamətdə

1. Bankdan borca alınan pul
3. Maliyyə qurumu
5. ABŞ milli valyutasının adı
6. Bankda pul saxlanılan yerin adı
9. Türk milli valyutasının adı

Cavablar:

Üfüqi istiqamətdə
2. Rubl
4. Divident
7. Maliyyə
8. Lari
10. Azn
11. Kart

Şaquli istiqamətdə
1. Kredit
3. Bank
5. Dollar
6. Xəzinə
9. Lira

Krossvord



A Pul xərcləmə davranışın haqqında öyrən!

	Aşağıdakı suallara cavab ver:	xallar:	cavabınız:
7	**Pulunu itirirsənmi və ya haraya qoyduğunu unudursanmı?**		
a	Bəli, tez-tez	5	
b	Xeyr, heç vaxt olmur – mən həmişə pulumun məbləğini və yerini bilirəm	1	
c	Bir- iki dəfə pulumu qoyduğum yer yadımdan çıxıb, bu hamının başına gələ bilər	3	
8	**Məktəb ləvazimatı almağa gedərkən, Sən:**		
a	Lazım olmayan və heç vaxt istifadə etməyəcəyin əşyaları tez-tez alırsan	5	
b	Həmişə siyahı ilə gedirsən və orada ancaq sənə lazım olanlar yazılır	1	
c	Alış- veriş zamanı qərar verirsən;çox xoşuna gələn nə isə görsən onu mütləq alırsan	3	
9	**Geyim alarkən, Sən:**		
a	Brend/markaya fikir verirsən – özünə ancaq ən yaxşısın alırsan	3	
b	Endirim vaxtı alırsan – münasib qiymətə	1	
c	Brend və ya qiymətə çox fikir vermirsən, xoşuna gələn geyimi alırsan	5	
10	**Sən xüsusi bir məqsəd üçün pul yığıb saxlamısanmı?**		
a	Xeyr	5	
b	Bəli	1	
c	Müəyyən məqsəd olmadan pul yığıb saxladığım olub	3	
11	**Pul xərcləyəndə nə hiss edirsən?**		
a	Sevinirəm	5	
b	Bu zaman çox tərəddüd edirəm	1	
c	Heç bir hiss keçirmirəm, sadəcə xərcləyirəm	3	
12	**Dostların sənə deyir ki, bir həftədən sonra konsertə gedəcəklər. Biletin 30 manata olmasına görə bir qədər tərəddüd edirsən.**		
a	Konsertə bir həftə qalana qədər heç nə etmirsən, bilirsən ki, valideynlərin və ya dostların vəziyyətdən çıxaracaqlar	5	
b	Bunun üçün dərhal qənaət etməyə başlayırsan	1	
c	Valideynlərindən xahiş edirsən kİ, pulun yarısını onlar ödəsinlər	3	

A Pul xərcləmə davranışın haqqında öyrən!

	Aşağıdakı suallara cavab ver:	xallar:	cavabınız:
13	Evin yaxınlığındakı dükanda çoxdan arzuladığın oyunun diskini 10 manata görürsən, lakin bir qədər uzaqda bu diskin 5 manata satıldığını bilirsən. Bu zaman:		
a	Diski 10 manata almağa qərar verirsən, çünki oyunu indi oynamaq istəyirsən	5	
b	Bir qədər uzaqda olan dükana yollanırsan	1	
c	Vaxtın varsa, uzaqdakı dükana gedirsən, əks təqdirdə 10 manatlıq diski alırsan	3	
14	Sənin yeganə gəlir mənbəyin:		
a	Valideynlərindir –pul lazım olanda onlardan istəyirsən	5	
b	Ad günü və digər pul hədiyyələrini yığıb saxlayırsan	3	
c	Baxır vəziyyətə - hərdən bəxtin gətirir və xırda işlərdən qazana bilirsən	1	
15	Gələcəyini planlaşdırmaq haqqında Sən:		
a	Heç vaxt fikirləşməmisən	5	
b	Bunu əhəmiyyətli sayırsan, gələcəyini planlaşdırırsan	1	
c	Hərdən fikirləşirsən , amma elə də çox yox.	3	

15 xaldan 30 xala qədər:	Əmanətçi
Maliyyə işləri üçün xüsusi istedadın var, çünki hər bir qəpiyi dəyərləndirirsən. Qəfildən pul xərcləyib nəsə almaq, sənin adətin deyil. Sənin səbrlə qənaət etmək bacarığın çox yaxşı keyfiyyətdir, amma həyatın gözəlliklərindən bu qədər imtina etmək olmaz	
Məsləhət: Pulunu evdəki əmanət qutusunda saxlama, qoy pulun sənin üçün işləsin. Məsələn, valideynlərinlə birgə banka gedib pulunu investisiyaya çevirmək imkanlarını öyrən və bankda depozit hesabı aç. Müəyyən et ki, nə qədər qənaət eləmək "yetərlidir", elə et ki, həyatından zövq almağa da imkan qalsın. Görünür ki, sənin maliyyə məsələləri haqqında kifayət qədər məlumatın var. Heç bank sektorunda işləmək haqqında düşünmüsənmi?	
Hər halda büdcə planlaşdırma cədvəli ilə tanış ol. Bu yalnız sənə yox, maliyyə işlərində sənin qədər bacarıqlı olmayan dostlarından və ya qohumlarından kiməsə xeyirli ola bilər.	

Dəyərli kəlamlar

“Əsas olan pulu qazanmaq deyil onu xərcləməkdir”

“Pul onu sayanı sevir”

“Əgər siz pulun dəyərini anlamaq istəyirsinizsə, onları kiməsə borc verin” (Benjamin Franklin)

“Varlanmaq üçün iki şey lazımdır : birinci işləmək ikinci isə qənaət etmək”

“Nə əkərsən onu da biçərsən”

“Dama dama göl olar, qəpik qəpik üstünə yığılsa manat olar”

“Saxla samanı gələr zamanı”

“Xəzinədə-əmanət, ehtiyacda-var dövlət...”

“Xərclədikdən sonra qənaət etmə, qənaət etdikdən sonra xərclə” (Uoren Baffet)

“Çox pul qazanmaq - igidlik; onu saxlamaq - müdriklik; məharətlə xərcləmək isə - incəsənətdir” (Bertold Averbax)

! Hər "pul" növünün üstünlükləri və çatışmazlıqları var!

31 xaldan 45 xala qədər:	Ağıllı
Sənin nə vaxtsa borca düşmək ehtimalın azdır, çünki sən hər şeyi nəzərə ala bilirsən. Gəlir və xərclərinə böyük diqqət göstərirsən. Sən xərclərinə məsuliyyətlə yanaşırsan və öz maliyyə işlərini nəzarətdə saxlaya bilirsən. Sükanı belə saxla! Tələsmə, bildiklərindən istifadə et və öz qərarını ver!	
Məsləhət: Sənin potensialın var. Yaradıcılığından istifadə et. Sən gələcəkdə nə işlə məşğul olacağını artıq bilirsənmi? İqtisadiyyat sahəsində peşələrdən seçsən səhv etməzsən!	
Vaxt ayırıb büdcə planlaşdırma cədvəli ilə tanış ol. Bu sənin maliyyə və iqtisadiyyat haqqında olan biliklərini artırmağa faydalı olar. Digər tərəfdən isə bu cədvəl sənə, dostlarına və ya qohumlarına öz xərclərini nəzarətdə saxlamağa kömək edər. Büdcə planlaşma cədvəli çox sadədir, ondan istifadə et!	
46 xaldan 60 xala qədər	**Tələskən-Hövsələsiz**
Yaxşı yaşamaq sənin üçün çox vacibdir. Sən pulu ona görə xərcləyirsən ki, xərcləməkdən xoşun gəlir. Təəssüf ki, bəzən sən öz imkanlarından daha çox xərcləyirsən. Xoşbəxtlikdən vaxtında buna reaksiya göstərə bilirsən. Borcun olanda sən davranışını dəyişib qənaətcil olursan. Diqqət! Bu ancaq sabit gəlir olanda effekt verir.	
Məsləhət: Başqalarının qayğısına qalmaq imkanının olması üçün, sən ilk növbədə öz qayğına qalmalısan. Sənə kiçik kömək lazım olanda, xahiş etməkdən çəkinmə. Maliyyə və iqtisadiyyat haqqında daha çox məlumatlanmağın vacibdir. Bu biliklərdən istifadə sənin həyat standartını uzun müddətli təmin etməyə imkan verir.	
Gözlənilməz xərclərə və ya yarana biləcək hər hansı təcili ehtiyaclara hazırlıqlı deyilsən. Uzun müddətli planlar qur və gözlənilməz xərclərə hazır ol. Təklif etdiyimiz alət sənə büdcə planı qurmağa kömək edər.	
61 və daha çox:	**Bədxərc**
Sənin xoşladığın iş xərcləmək, xərcləmək və yenə də xərcləməkdir. Pulun kimin olması səni maraqlandırmır. Sənə lazım olmasa da, ürəyindən keçəni almağa meyillisən. Ona görə də çox vaxt imkanından artıq xərcləyirsən. Əgər belə davam etsən, gələcəkdə böyük borcların öhdəsindən gəlməli olacaqsan. Ehtiyatlı ol, çünki sənin borcun olsa, ailən və dostların da bundan əziyyət çəkəcəklər. Sənin etibarından istifadə edib pul qazanmaq istəyən insanlara güvənmə! Böyük xərclərə qərar verməzdən əvvəl ailən və dostlarınla məsləhətləş!	
Məsləhət: Xərclərinə ara verib qənaət etmək imkanlarına baxmağa nə deyirsən? Riskin qarşısının alınması biliklə başlayır. Sənin həyatın risklə doludur.	
Təcrübənə arxayın olsan da, kalkulyatordan istifadə et. Geniş büdcə planı düzəlt! Bizim dəstənin üzvlərindən biri Sənə büdcə planından istifadə qaydalarını başa salacaq. Əmin ol: xərclərinə nəzarət edə bilsən, həyatın boyu böyük stresslərin qarşısını ala biləcəksən.	

B Əmanətin məqsədi

Əmanətin məqsədi həvəsləndirici olmalıdır, elə bir şey olmalıdır ki, sənə uğur qazandırsın. Məsələn, ev tapşırıqlarını etməyə sənə kompüter lazımdırsa, bu əmanət üçün çox yaxşı bir hədəf ola bilər!

Mənim əmanətimin məqsədi	Nə vaxta	Təxmini qiyməti
Kompüter	01.01.2014	600 manat

Əmanət növünü necə seçmək lazımdır?

• Sizə uyğun şərtləri seçin.

Məsələn, 1 il ərzində pul yığıb kompüter almaq istəyirsinizsə, o zaman artırıla bilən əmanət növü daha uyğundur. Bu zaman Siz istənilən vaxt istənilən məbləği ilk dəfə qoyduğunuz əsas vəsaitə əlavə edib gəlirinizi artıra bilərsiniz.

Amma unutmayın ki, əmanət müqaviləsinin şərtləri nə qədər dəyişkən olsa, ona verilən faiz gəliri bir o qədər aşağı olur.

• Sizə daha uyğun valyutada əmanəti seçin.

Məsələn, Siz Parisə səfər üçün pul yığmaq istəyirsinizsə, o zaman əmanəti Avroda açmaq sərfəli olar.

• Ən sərfəli şərtlər təklif edən və etibarlı olan bankı seçin.

Bunun üçün, müxtəlif bankların əmanət şərtlərini müqayisə edin. Bu şərtləri əldə etmək üçün bir neçə məlumat mənbəsinə müraciət edin.

Əmanət nədir?

Əmanət - eyni zamanda bankda saxlanmağa verilən pul vəsaitləridir. Bu vəsaitlər əmanətçiyə müəyyən müddətdən sonra gəlir qazandırır.

Əmanət nə verir:

- Əlavə pul – yəni bankda saxlanmağa verilən pul vəsaitinin üzərinə gələcək faiz;
- Pulunuzu geri götürmək imkanı – vəsaitinizi istədiyiniz zaman bankdan geri götürüb əmanət müqaviləsini ləğv edə bilərsiniz.

Nümunə: Məsələn, əgər Siz banka 2 300 manat məbləğində, 6 ay müddətinə illik 7%-lə əmanət yerləşdirmişsinizsə, o zaman 6 aydan sonra Siz öz əmanətinizi və onun üzərinə əlavə olunan faizi götürə bilərsiniz. Beləliklə, 6 ay ərzində 80,5 manat qazanmış olursunuz.



C Büdcə planı

Hansı növ xərclərin var?
Onları daxil et, məsələn yemək, içki, musiqi, kino, geyim, mobil telefon və s.

1 həftədə 3 dondurma vacibdirmi? Əmanətin məqsədini yadına sal!

Bax, belə!	B. e.	Ç. a.	Ç.	C. a.	C.	Ş.	B.	Cəmi
Şirə	0.40 AZN		0.40 AZN			0.40 AZN		1.20 AZN
Qutab	0.30 AZN		0.30 AZN		0.30 AZN			0.90 AZN
Buterbrot	0.30 AZN	0.30 AZN	0.30 AZN	0.30 AZN	0.30 AZN			1.50 AZN
İçki	0.40 AZN		0.40 AZN		0.40 AZN			1.20 AZN
Dondurma		0.40 AZN		0.40 AZN			0.40 AZN	1.20 AZN
Yeni CD					4.00 AZN			4.00 AZN
Kinoteatr						7.00 AZN		7.00 AZN
Jurnal				5.00 AZN				5.00 AZN
Cəmi	1.40 AZN	0.70 AZN	1.40 AZN	5.70 AZN	5.00 AZN	7.40 AZN	0.40 AZN	22.00 AZN

Növbəti 2 həftədə edəcəyin, amma indidən məlum olan xərclər haqqında düşün!

Cəmi 1 dondurma, 1 içki və 1 şirədən imtina etsək, həftədə 1,20 manat a qənaət edərsən.

Görürsən, kinoya və disklərə çox xərcləyirsən!

Bilirsiniz ki, pulun əsas 4 funksiyası var. Onun əsas funksiyaları - mübadilə vasitəsi (tədavül), hesablaşma vahidi (tədiyyə), yığım funksiyası və ödəmə standartı (dəyər ölçüsü)olmasıdır.

İnflyasiya müəyyən dövr ərzində malların və xidmətlərin olan qiymətlərinin ümumi səviyyəsinin qalxmasıdır. Qiymətlərin ümumi səviyyəsi artarkən pulun hər bir vahidinə alına biləcək mal və xidmətlər azalır. Odur ki, inflyasiya həm də pulun alıcılıq qabiliyyətinin düşməsini əks etdirir – yəni tədavül və dəyər ölçüsü kimi iqtisadiyyat daxilində onun real dəyəri azalır. İnflyasiyanın əsas göstəricisi illik hesabda qiymətlərin ümumi əmsalının faizlə dəyişməsidir.

Məsələn: Qəzetdə yazılıb ki, inflyasiya 2% artıb. Sizin illik gəliriniz 6000 manatdır. Siz istədiyiniz həmişəki məhsulları almaq üçün 2% daha artıq pul xərcləməlisiniz, yəni qazancınız 6120 manat olmalıdır.

Bilirsinizmi ?

Bilirsiniz ki, Azərbaycan Mərkəzi Bankı aşağıdakı missiyanı həyata keçirir:

• qiymətlərin sabitliyini təmin etmək;

• maliyyə sabitliyini qorumaq;

• ölkənin iqtisadi inkişafına dəstək vermək.

Bilirsiniz ki, müştərilərinə kredit vermək üçün kommersiya bankın əmanətinizə ehtiyacı var?

Siz bir kommersiya bankında əmanət hesabı açıb orada pul yığsanız, buna görə faiz alacaqsınız. Pulunuz Sizin üçün işləyəcək! Amma bank da pul qazanır, belə ki, kreditlərə görə faiz alır. Bankda kredit alan müştəri krediti qaytararkən əlavə faizlər ödəyir.

C Büdcə planı

Hansı günlər daha çox xərcləyirsən?
Niyə?



C Büdcə planı

1-ci həftə	B. e.	Ç. a.	Ç.	C. a.	C.	Ş.	B.	Cəmi
Cəmi								

2-ci həftə	B. e.	Ç. a.	Ç.	C. a.	C.	Ş.	B.	Cəmi
Cəmi								

C Büdcə planı

3-cü həftə	B. e.	Ç. a.	Ç.	C. a.	C.	Ş.	B.	Cəmi
Cəmi								

4-cü həftə	B. e.	Ç. a.	Ç.	C. a.	C.	Ş.	B.	Cəmi
Cəmi								